# I Avropa Oyunları öz miqyası, qeyri-adiliyi, gözəlliyi ilə seçiləcək

**"Bakı-2015" dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına mühüm töhfələr verəcək, Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olmasını dünyaya nümayiş etdirəcək.**

**Bu gün müstəqil Azərbaycanın idman ölkəsi adını qazanmasının əsasında xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti, idmana diqqət və qayğısı durur. Məhz uğurlu idman siyasətinin nəticəsidir ki, qazanılan nailiyyətlər saysız-hesabsızdır. Azərbaycan idmançıları müxtəlif növlər üzrə Avropa, dünya çempionatlarında, Olimpiya yarışlarında böyük uğurlar əldə edirlər.**

1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, idmana da diqqət artırıldı. İdmançılarla görüşlər keçirildi, fərqlənənlər mükafatlandırıldı və Prezidentin fərdi təqaüdlərinə layiq görüldülər, orden və medallarla təltif olundular. Ulu öndərin təşəbbüsü ilə respublikamızda idmanı daha da inkişaf etdirmək məqsədilə bir sıra mühüm qərarlar qəbul edildi, müvafiq fərman və sərəncamlar imzalandı. Daha sonra Gənclər və İdman Nazirliyinin yaradılması yetişməkdə olan gənc nəslə böyük qayğı, xalqımızın gələcəyinə və sağlamlığına diqqətin artırılmasının parlaq nümunəsi idi. Bakıda, respublikanın şəhər və rayonlarında beynəlxalq standartlara cavab verən olimpiya kompleksləri, idman qurğuları, stadionlar tikilib istifadəyə verildi.

Dövlət başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyevin idmana, idmançılara və onların məşqçilərinə göstərdiyi diqqət və qayğı, yaratdığı şərait ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilir. Bu baxımdan 2005-ci ilin mart ayının 4-də Prezident İlham Əliyevin "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında sərəncamı və "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının təsis edilməsi haqqında fərmanı təqdirəlayiqdir. Həmin sərəncama əsasən hər il martın 5-nin ölkə idmançılarının bayram günü kimi qeyd olunması qərara alınmışdır. 2000-ci ilin fevral ayında "Bədən tərbiyəsi və idmanın dövlət inkişafı proqramı", 2004-cü ilin avqust ayında "Azərbaycan Respublikasında Bədən Tərbiyəsi və İdman Dövlət İnkişaf Proqramı (2004-2008-ci illər)" təsdiq olunmuşdur.

Bu vacib dövlət sənədlərində bədən tərbiyəsi və idmanın əsas istiqamətləri, sağlam həyat tərzinin inkişafının formalaşması, fiziki-mənəvi dəyərlərin təkmilləşdirilməsi, idman və bədən tərbiyəsi ilə məşğul olmaq istəyənlər üçün şəraitin yaradılması, zərərli vərdişlərin aradan qaldırılması ilə bağlı məsələlər öz əksini tapmışdır.

Əlamətdar idman hadisələrindən biri Yay Olimpiya Oyunlarıdır. Olimpiya oyunları dünyada keçirilən ən möhtəşəm, ən mötəbər tədbirdir. Milyonlarla insan olimpiya oyunlarında Azərbaycan himninin səslənməsini, bayrağının ucalmasını, idmançılarımızın qələbələrini izləyib. Ümummilli liderimiz Heydər Əliyevin bu barədə ibrətamiz bir fikri var: "Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də ki, idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən olur. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Yay Olimpiya Oyunlarında da iştirak edən hər bir idmançımızın qarşısında qalib gəlmək, Azərbaycanın bayrağını yüksəltmək, dövlət himnini səsləndirmək və idman şərəfini ləyaqətlə doğrultmaq kimi məqsəd qoyur.

Artıq mübaliğəsiz demək olar ki, Azərbaycan idman ölkəsi kimi dünyada özünə layiqli yer tutub. Olimpiya hərəkatında fəal iştirakımız, Azərbaycanda beynəlxalq yarışların, o cümlədən olimpiya lisenziya turnirlərinin keçirilməsi, idmançılarımızın xarici ölkələrdəki yarışlarda müvəffəqiyyətlə çıxış etmələri, güclü idman strukturunun yaradılması, idmana dövlət qayğısının artması və digər amillər Azərbaycanın idman ölkəsi kimi imicini formalaşdırıb. Yay Olimpiya Oyunlarında iştirak edən Azərbaycan idmançılarının qələbələri, yarışlarda böyük ustalıq, məharət nümayiş etdirməsi doğma Vətənimizin idman şöhrətini daha da yüksəklərə qaldırıb.

İrqindən, dinindən asılı olmayaraq müxtəlif millətlərin nümayəndələrini bir araya toplayaraq onların ədalətli idman mübarizəsini təmin edən Olimpiya oyunları möhtəşəm idman tədbiridir. Bu oyunlarda göstərilən nəticə yalnız dövlətin idman həyatının deyil, onun iqtisadi potensialının, ictimai, sosial-mədəni həyatının göstəricisidir. Olimpiya oyunlarında qazanılan yüksək nəticələr beynəlxalq miqyasda ölkənin imicini formalaşdırıb yüksəltməklə yanaşı, onun imkanlarını da nümayiş etdirir.

Yay olimpiya oyunlarından əhəmiyyətinə görə heç də geri qalmayan Avropa qitəsinin İdman Oyunlarını keçirmək təşəbbüsü illər öncə yarandı. Olimpiya oyunlarına ev sahibliyi etmək hər bir ölkənin arzusu olduğu kimi, Avropa Oyunlarının keçirilməsi də Avropa ölkələri arasında böyük maraqla qarşılandı. Təsadüfi deyil ki, ev sahibliyi uğrunda çox ciddi mübarizə getdi. 2015-ci ildə birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edildi. Məhz bu tədbirdə 2015-ci ildə ilk Avropa Oyunlarını keçirmək hüququ Azərbaycanın paytaxtı Bakı şəhərinə verildi. AOK Baş Assambleyasının qərarı səsvermədə iştirak edən 48 nəfərdən 38-nin səs çoxluğu ilə qəbul edildi. Bu, Azərbaycana böyük etimad və inamın nəticəsi idi.



Azərbaycan Prezidenti cənab İlham Əliyev bu münasibətlə 2012-ci il dekabrın 10-da Azərbaycan xalqını təbrik edərək demişdir: "Dekabrın 8-də Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu böyük tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, doğrudan da tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya Oyunları keçirilməmişdir və ilk oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur. Bu qərarın qəbul edilməsində iştirak etmiş bütün insanlara, Avropa Olimpiya Komitəsinə böyük minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan bu oyunları yüksək səviyyədə keçirəcəkdir".

Bu qərarın qəbul edilməsində bir neçə amil öz rolunu oynamışdır. İlk növbədə, ölkəmizin beynəlxalq nüfuzudur. Azərbaycan bu gün dünyada böyük hörmətə malik olan bir ölkədir. Dünya birliyində bizim rolumuz, təsir imkanlarımız artır və dünya birliyi Azərbaycana böyük hörmətlə və etimadla yanaşır.

Digər amil ondan ibarətdir ki, Azərbaycanda uzun illər ictimai-siyasi sabitlik hökm sürür. Ölkəmizin dinamik, uğurlu inkişafı üçün ictimai-siyasi sabitlik çox mühüm rol oynayır və Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi dünyada özünü təsdiqləyibdir.

Bu qərarın qəbul edilməsində şübhəsiz ki, idmançılarımızın uğurları da öz rolunu oynamışdır. Azərbaycan bu gün dünyada və Avropada idman dövləti kimi tanınır. Bizim uğurlarımız həm beynəlxalq yarışlarda əldə etdiyimiz medallarla ölçülür, eyni zamanda, Azərbaycanda, Bakıda yaradılmış müasir idman infrastrukturu da uğurlarımızı tamamlayır.

Bu da bir faktdır ki, idmançılarımızın uğurları özünü Yay Olimpiya Oyunlarında da göstərmişdir. Belə ki, ölkəmizin ilk dəfə müstəqil yığma komanda kimi qatıldığı Atlanta Olimpiadasında (1996) cəmi bir medal (gümüş) qazanılmışdırsa, sonrakı Olimpiya Oyunlarında — Sidneydə (2000) 3 medal (2 qızıl, 1 bürünc), Afinada (2004) 5 medal (1 qızıl, 4 bürünc), Pekində (2008) 7 medal (1 qızıl, 2 gümüş, 4 bürünc), nəhayət, Londonda (2012) 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc) əldə edilmişdir. Dünya miqyasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci yerə layiq görülmüşdür.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar böyük tarixi hadisədir. Bu, bizə göstərilən böyük inamdır, böyük etimaddır, böyük hörmətdir, eyni zamanda, üzərimizə düşən böyük məsuliyyətdir.

Ötən il noyabrın 23-də Romada keçirilən Avropa Olimpiya Komitəsinin 42-ci Baş Assambleyasında "Bakı-2015" Avropa Oyunlarının təqdimatı olmuşdur. Təqdimat zamanı 2015-ci ilin iyununda Bakıda keçiriləcək birinci Avropa Oyunlarının rəsmi loqosu təqdim edilmişdir. Bu təqdimat zamanı Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov bildirib ki, bizim loqomuz xalqımızın idman irsindən qürur duymasını, qonaqpərvərliyə sədaqətimizi, ölkəmizin idman, biznes və turizm mərkəzi kimi mövqeyini əks etdirir. Loqo təqdimatı Roma ilə yanaşı, eyni vaxtda Bakıda və Madriddə də nümayiş olundu. 35 yaşlı azərbaycanlı dizayner Adəm Yunisov tərəfindən tərtib edilmiş bu yeni loqo alov, su, əfsanəvi simurq quşu, xalı və nar da daxil olmaqla, ev sahibi ölkənin qədim və müasir mədəniyyətini əks etdirən beş başlıca elementi bir araya gətirmişdir. A.Yunisovun açıq ictimai müsabiqə nəticəsində seçilmiş loqo tərtibatı ölkənin təbii gözəlliklərini, mədəniyyət və irsini, o cümlədən Avropanın ən sürətlə inkişaf edən şəhərlərindən biri kimi Bakının assosiasiyasını təsvir edir.

Bütün dünyaya ceyranı və narı da təqdim etməyə olduqca şadıq. Ümidvarıq ki, onlar birinci Avropa Oyunlarının həyəcanını əks etdirə biləcəklər. Ceyran və nar "Bakı-2015"in rəmzləri kimi Azərbaycanda yeni nəsil idman azarkeşlərini ruhlandıracaq, həyəcanlandıracaq və əyləndirəcək.

Avropa Oyunları Avropanın hər yerindən gələn 6000-dən çox idmançı arasında keçiriləcək çoxşaxəli idman yarışıdır. Avropa Oyunları Asiya Oyunları, Pan-Amerika Oyunları, Ümum-Afrika Oyunları və Sakit Okean Oyunlarından sonra keçiriləcək qitə oyunlarıdır. 2015-ci ildən etibarən hər bir qitənin Olimpiya ənənələrinə uyğun Qitə Oyunları olacaq.

"Bakı-2015" I Avropa Oyunlarında çimərlik futbolu və 3x3 basketbol, karate və sambo kimi yeni idman növləri də daxil edilərək, on altısı Olimpiya və dördü qeyri-Olimpiya olmaqla cəmi 20 idman növü təmsil olunacaq.

Ümumilikdə 253 medal uğrunda mübarizə aparılacaq. Kamandan oxatma, atletika, voleybol, boks, velosiped idmanı, cüdo, atıcılıq, üzgüçülük, stolüstü tennis, taekvondo, triatlon və güləş daxil olmaqla 12 idman növü üzrə Rio-2016 Yay Olimpiadasına təsnifat imkanları veriləcək.

I Avropa Oyunları bütün qitə üçün həyəcanverici və innovativ çoxsaylı idman yarışlarını özündə birləşdirən ilk böyük idman tədbiridir. "Bakı-2015" I Avropa Oyunlarının açılış və bağlanış mərasimləri Bakını və Azərbaycanı dünyaya nümayiş etdirmək üçün gözəl imkandır.

"Bakı-2015" I Avropa Oyunlarının artıq Fransanın Kann şəhərində, Afinada, Soçidə, Berlində, BMT Baş Məclisində, İstanbulda, Parisdə, Davosda, Rumıniyada, Macarıstanda, Romada, Moskvada, Brüsseldə, Polşada, Londonda yüksək səviyyədə təqdimat mərasimləri keçirilmişdir.

"Bakı-2015" Avropa Oyunlarının açılış mərasiminin bədii direktoru Dimitris Papaioannoudur. "Afina-2004" Olimpiya Oyunları mərasimlərinin bədii direktoru olmuş tanınmış incəsənət xadimi, xoreoqraf, aktyor və yaradıcı baxışa sahib olan D.Papaioannou bu möhtəşəm tamaşa işi üçün çox münasib hesab olunur. D.Papaioannou "Afina-2004" Olimpiya Oyunlarındakı işindən sonra Yunanıstanın Prezidenti tərəfindən görkəmli yaradıcılıq nailiyyətlərinə görə "Qızıl xaç şərəf" ordeninə layiq görülüb. Həmin vaxtdan o, bütün dünya üzrə həyata keçirilən və yüz minlərlə tamaşaçını birləşdirən bir sıra təməlqoyma mərasimlərinin yaradıcı müəllifi olub.

D.Papaioannou: "Bakı-2015"in açılış mərasiminin təşkili üçün təyin olunmağım mənim üçün həm şərəfdir, həm də həlli çətindir. Lakin maraqlı vəzifədir. Mənim arzum Azərbaycanın mədəni irsinə xas olan əsas elementlərdən istifadə edərək müasir, yeni və oynaq, lakin mədəniyyətin zənginliyinə və dərinliyinə hər zaman hörməti əks etdirən yolla bir ümumbəşəri hekayə yaratmaqdır".

Skot Givens və Mark Ponçer tərəfindən idarə olunan qabaqcıl şirkət "FiveCurrents" açılış və bağlanış mərasimlərinin təşkili üçün təyin edilib. "FiveCurrents" "Soçi-2014" Qış Olimpiya Oyunlarının mərasimlərini, "Rio-2007" və "Quadalacara-2011" Pan Amerika Oyunlarının mərasimlərini, Sinko de Mayonun 15-ci ildönümünü və Rio-de-Janeyroda Reveillon Kopakabana Yeni il şənliyini həyata keçirib.

"Bakı-2015"in açılış və bağlanış mərasimlərində iştirak etmək üçün 6000 nəfərdən ibarət üzvü olan könüllü proqramı fəaliyyət göstərir. "Bakı-2015"in mərasimlər komandası yaradıcılıq həvəsi olan, təşəbbüskar, enerjili və öz ölkəsini dünyaya təqdim etmək istəyənləri işə cəlb edib.

Açılış mərasimi iyunun 12-də, yenicə tikilmiş Milli Stadionda, 68000 tamaşaçı və dünya üzrə milyonlarla televiziya izləyicisi qarşısında keçiriləcək.

Oyunlar 2015-ci ilin 12-28 iyun tarixlərində keçirilməklə, ümumilikdə 17 yarış gününü əhatə edəcək. Oyunlarda 50 Avropa Olimpiya Komitələrini təmsil edən 6000-ə yaxın idmançı öz qüvvəsini sınayacaq.



Yarışlar 18 yarış obyektində keçiriləcək. Bunlara yeni tikilmiş Gimnastika Arenası, BMX Veloparkı, Su idmanı Sarayı və Atıcılıq Mərkəzi, eyni zamanda 68000 nəfərlik tamaşaçı tutumuna malik, Atletika yarışları və Oyunların açılış və bağlanış mərasimləri üçün nəzərdə tutulan Bakı Olimpiya Stadionu da daxildir.

Su idmanı növləri üzrə yarışlar Bakı Su İdmanı Mərkəzində keçiriləcəkdir. Yeni Su İdmanı Mərkəzində ümumi maraq oyadacaq idman növləri suya tullanma, üzgüçülük və sinxron üzgüçülük olacaq. Sözügedən yarışlarda 6000 azarkeşin qarşısında 800-dən çox atlet gücünü sınayacaq. Su idmanı yarışlarında idmançılar 56 medal ilə təltif olunacaq və üzgüçülük üzrə 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunları üçün Olimpiya seçmə yarışları standartları tətbiq olunacaq.

Kamandan oxatma üzrə yarışlar Tofiq Bəhramov Stadionunda baş tutacaq. Avropanın ən dəqiq ox atan idmançıları yeddi yarış günü müddətində məşhur Tofiq Bəhramov Stadionunda qalibiyyət uğrunda mübarizə aparacaqlar. Avropa Oyunlarında yarışlar fərdi və qrup halında, eyni zamanda qarışıq qrup şəklində rekursiv kaman kateqoriyasında (recurve division) 64 kişi və 64 qadın arasında Olimpiya Oyunları formatında keçiriləcək. Ümumilikdə 5 medal 3000 tamaşaçı qarşısında sahiblərinə təqdim olunacaq. Oxatma, həmçinin 2016-cı il Rio Yay Olimpiya seçmə yarışları üçün yüksək xallar uğrunda mübarizəyə imkan yaradacaq.

20 kişi və 20 qadın idmançının mübarizə aparacağı, eyni zamanda, Yüngül Atletika üzrə Avropa Komanda Çempionatının Üçüncü Liqası hesab olunacaq yüngül atletika yarışları möhtəşəm Milli Stadionda keçiriləcək. 2 gün ərzində 500 idmançı yüngül atletika idmanının bütün növləri üzrə xal uğrunda mübarizə aparacaq və həmin xal qızıl, gümüş və ya bürünc medal qazanmaq üçün sonradan komandanın yekun xalı ilə birləşdiriləcək. Avropa Oyunlarında yüngül atletika idman növü 2016-cı il Rio Yay Olimpiya Oyunları üçün seçmə yarışlar ilə bağlı mümkün standartlar təklif edir.

Badminton yarışları zamanı yüksək enerjili oyunların nümayişi Bakı İdman Zalında həyəcanlı anların yaşanmasına səbəb olacaq. Yeddi gün ərzində keçiriləcək yarışlarda kişi və qadın idmançılar təkbətək, cütlük şəklində və qarışıq cütlük şəklində mübarizə aparacaqlar. Təxminən 160 idmançı 1700 tamaşaçı qarşısında qızıl medal uğrunda mübarizə aparacaq.

İnnovativ 3x3 basketbol yarışı yüksək xallar, bacarıqların nümayişi və yüksək temp sayəsində Oyunlarda ən məşhur idman növü olacaq. Dörd gün ərzində 128 atletdən ibarət 32 komanda yarışacaq və ayrılıqda kişilərdən və qadınlardan ibarət komandaların hər biri bir dəfə medal ilə təltif olunacaq. Oyun 3 oyunçudan ibarət iki komanda arasında standart basketbol meydançasından iki dəfə kiçik olan meydançada oynanılır. Sözügedən yarışlardan dünyadakı 250 milyondan artıq oyunçunun zövq alacağı güman olunur. Müvəqqəti Basketbol Arenası atılan hər bir topa yuxarıdan azarkeşlik edən 2500 tamaşaçı tutumuna malikdir.

Dünyanın ən məşhur gözəl oyunlarından biri olan çimərlik futbolu ənənəvi futbol meydançasının təxminən dörddə biri həcmində olan qum meydançasında oynanılır və burada qolların sayı daha çox olur. Yekun nəticə — hücuma yönələn sürətli kombinasiyalı oyun və hər 30 saniyədən bir qapıya zərbə, bundan əlavə hər oyun ərzində orta hesabla 9 qol deməkdir. 96 idmançının iştirak etdiyi və 8 kişidən ibarət olan komandalar beş günlük yarış müddətində üz-üzə gələcək. Avropa Oyunları Parkındakı Çimərlik Arenası Oyunlar üçün 2900 azarkeşə ev sahibliyi edəcək.

*(davamı 9-cu səhifədə)*







# I Avropa Oyunları öz miqyası, qeyri-adiliyi, gözəlliyi ilə seçiləcək

*(əvvəli 8-ci səhifədə)*

Boks üzrə yarışlar Crystal Hallda keçiriləcəkdir. Azərbaycanda çox məşhur idman növü olan boks yarışları 296 idmançının iştirakı ilə 12 gün ərzində keçiriləcək və bu yarışlarda 15 medal qazanmaq fürsəti olacaq. Kişilər arasında 10, qadınlar arasında 5 çəki kateqoriyasında mübarizə təşkil olunacaq ki, bu da əsas boks turnirində ilk dəfə olaraq qadınlar üçün ənənəvi üç çəkidən artıq çəkilərin iştirakı deməkdir. Kişilər arasında 10 çəki kateqoriyasının hər birində 3 medal qazanan idmançılar AİBA 2015 Dünya Boks Çempionatında iştirak hüququ qazanacaqlar. Həmin yarışda ən yüksək reytinqli boksçular öz Milli Olimpiya Komitələri üçün Rio-2016-ya kvota yeri qazanacaq.

Avarçəkmə idmanı üzrə yarışlar Mingəçevirdə keçiriləcək. Tarixi şəhər sayılan Mingəçevir üç həyəcanlı yarış günü müddətində suya baş vuracaq 150 idmançının rəqabət aparacağı Kanoe Sprinti yarışlarına ev sahibliyi edəcək. Ümumilikdə, 12 kayak yarışı (kişilər və qadınlar arasında) və üç kanoe yarışı (yalnız kişilər arasında) keçiriləcək. "İşıqlar şəhəri" kimi də tanınan Mingəçevir Bakıdan təxminən



250 kilometr məsafədə yerləşir və oradakı 1350 nəfərlik obyektlərdə Oyunlara hazırlıq məqsədilə geniş təkmilləşdirmə işləri aparılmışdır.

Velosiped idmanı BMX Veloparkı, Dağ Velosipedi Veloparkı, Azadlıq meydanı, Bilgəh çimərliyini əhatə edəcək. Heç şübhəsiz, yüksək sürətli velosiped yarışları "Bakı-2015" Avropa Oyunlarına böyük kütləni cəlb edəcək. Hər birinin 2000 tamaşaçı tutumu olan daimi BMX Veloparkı və müvəqqəti Dağ Velosiped Veloparkı, BMX və Dağ Velosiped yarışlarına ev sahibliyi edəcək. Bütün bu idman növləri üzrə ümumilikdə 346 idmançı açıq havada keçiriləcək velosiped yarışlarında iştirak edəcək. Atletlər 2016 Rio-de-Janeyro Yay Olimpiya Oyunları üçün adı çəkilən dörd idman növü üzrə yüksək xallar uğrunda mübarizə aparacaqlar.

Qılıncoynatma üzrə keçiriləcək yarışlar Crystal Hallda baş tutacaq. Avropanın ən yaxşı qılıncoynadanları Crystal Hallda 2000 tamaşaçı qarşısında qələbə uğrunda aldadıcı fənd nümayiş etdirəcək, rapiradan istifadə etməklə texniki üsul göstərəcək və mübarizə aparacaqlar. Şpaqa, rapira və sablya üzrə fərdi və qrup şəklində təxminən 200 qılıncoynadan gücünü sınayacaq. Ümumilikdə, 12 medal ilə təltif olunma həyata keçiriləcək.

Gimnastika üzrə yarışlar Milli Gimnastika Arenasında baş tutacaq. Tamamilə yeni olan gözəl Milli Gimnastika Arenası ilk Avropa Oyunlarında gimnastika yarışlarına ev sahibliyi edəcək. Gimnastika yarışları İdman gimnastikası, Bədii gimnastika və Batut üzərində tullanma kimi üç ənənəvi, eyni zamanda Akrobatika və Aerobika kimi iki yeni qeyri-olimpiya idman növləri üzrə keçiriləcək. Ümumilikdə 446 kişi və qadın gimnast arasında gimnastikanın hər növü üzrə — fərdi, qrup və qarışıq qrup halında yarışlar keçiriləcək. 34 medal ilə təltif olunma baş tutacaq ki, bu da su idmanı növləri yarışlarından sonra medal imkanlarının sayına görə gimnastikanın ikinci yerdə olması deməkdir. Milli Gimnastika Arenası təxminən 6800 tamaşaçı tutumuna malikdir.

Cüdo yarışları Heydər Əliyev Arenasında keçiriləcəkdir. İdmançıların bir-biri ilə tam təmasda olduğu təkbətək döyüş forması olan cüdo Azərbaycanda ən geniş şəkildə inkişaf etmiş idman növlərindən biridir. Cüdoçulardan ibarət yarış iştirakçıları heyrətamiz Heydər Əliyev Arenasında 7800 nəfərlik coşğun insan kütləsi qarşısında rəqiblərini məğlub etməyə cəhd göstərəcəklər. Dörd gün ərzində fərdi və qrup halında keçiriləcək kişilərin və qadınların yarışlarında təxminən 400-dən çox cüdoçu mübarizə aparacaq. Çoxsaylı idman növləri üzrə əsas kontinental yarışlarda ilk dəfə olaraq görmə qabiliyyəti itmiş, çəkisi 90 kiloqramdan artıq olan kişilər və 57 kiloqramdan aşağı çəkili qadınlar arasında da medal uğrunda mübarizə baş tutacaq. Bu o deməkdir ki, Avropa Oyunlarında Cüdo yarışlarında ümumilikdə 18 medal üzrə təltif olunma mərasimi təşkil olunacaq.

Karate üzrə yarışlar Crystal Hallda baş tutacaq. Avropada ən sürətlə inkişaf edən təkbətək döyüş növlərindən biri olan Karate "Bakı-2015" Avropa Oyunlarında təşkil olunacaq qeyri-olimpiya idman yarışlarından biridir. 12 medal ilə təltif olunma mərasiminin baş tutacağı iki gün ərzində Avropanın ən yaxşı 96 idmançısı Crystal Hallda təxminən 2000 nəfərlik izdiham qarşısında öz bacarıqlarını nümayiş etdirəcək.

Sambo yarışlarının məkanı isə Heydər Əliyev Arenasıdır. Dünyanın ən müasir döyüş idman növlərindən biri olan sambo müxtəlif üslub və texnikaları özündə birləşdirir. Cüdo, cucitsu və güləş kimi dağıdıcı idman növlərinin qarışığı olan sambo Avropa və Asiyanın çox müxtəlif döyüş üslublarını özündə birləşdirərək unikal və cəlbedici idman incəsənəti yaradır.

Atıcılıq üzrə yarışlar Bakı Atıcılıq Mərkəzində keçiriləcəkdir. Bütün Avropadan ən təcrübəli idmançılar tamamilə yeni və xüsusi məqsədlə tikilmiş Bakı Atıcılıq Mərkəzində fikirlərini cəmləyib, özlərini tam nəzarətdə saxlama bacarıqlarını sınaqdan keçirəcəklər. Təxminən 330 nəfər kişi və qadın idmançının ən yüksək ad uğrunda mübarizəsi yeddi yarış günü müddətində baş tutacaq. Medal qazanmağa namizəd şəxslər tüfəng, stend və güllə atıcılığını əhatə edən 19 fərdi və komanda yarışlarında medal qazanmaq imkanı əldə edəcəklər. 2016-cı il Rio Yay Olimpiya Oyunları üçün ümumilikdə 15 Olimpiya yerləri fərdi birincilik yarışlarının qaliblərinə təqdim olunacaq. Buna görə də yarışların yüksək gərginlik ab-havasında keçməsi gözlənilir. Atıcılıq Mərkəzi təxminən 730 tamaşaçı tutumuna malik olacaq.

Stolüstü tennis yarışları Bakı İdman Zalında baş tutacaq. Dünyada ən sürətli və həyəcanverici idman növlərindən biri olan stolüstü tennis zamanı oyunçular tennis topuna qarşı çox sürətli reaksiya və düşüncə sürəti ilə Bakı İdman Zalında 2000 nəfərlik kütləni heyran qoyacaq. Yeddi yarış günündə ümumilikdə 128 idmançı mübarizə aparacaq. Kişilərin və qadınların fərdi və komanda şəklində yarışları dörd həyəcanverici medal ilə təltif olunma mərasimi ilə yekunlaşacaq. Fərdi qızıl medal qalibləri 2016-cı il Rio Yay Olimpiya Oyunları üçün öz yerlərini möhkəmləndirəcəklər. Bu isə o deməkdir ki, sizi birinci yer uğrunda şiddətli mübarizənin şahidi olmaq imkanı gözləyir.

Texniki və sərt təkbətək idman növü olan Taekvondo uğur qazanmaq üçün sürət və gücün birləşməsini tələb edir. Taekvondo yarışları dörd gün müddətində Crystal Hallda keçiriləcək. Yarışa həm kişilər, həm də qadınlar üçün dörd çəki kateqoriyası daxil olacaq və ümumilikdə səkkiz medal ilə təltif olunma ilə nəticələnəcək. Təxminən 128 idmançı 2000 tamaşaçı qarşısında 2016-cı il Rio Yay Olimpiya Oyunlarına kvalifikasiya üçün yüksək xal uğrunda mühüm hesab olunan yarışlarda mübarizə aparacaq.

Triatlon üzrə yarışlar Bilgəh çimərliyində keçiriləcək. Qətiyyət və istəyin sınaqdan keçirilməsi meydanı olan triatlon yarışlarında azarkeşlər yarış iştirakçılarının üzməsi, velosiped sürməsi və Bakı şəhərində qələbəyə aparan yol ilə qaçmasına şahidlik edəcək. Minlərlə tamaşaçı Avropanın ən yaxşı idmançılarının dünyanın ən ağır dözümlülük tələb edən idman növlərindən biri olan triatlon yarışlarında birinci yer uğrunda necə mübarizə aparmasının şahidi olmaq üçün şəhərin küçələrinə düzüləcək. Kişi və qadınların yarışlarında 130 iştirakçı olmaqla şiddətli mübarizə baş tutacaq. Çünki qızıl medal qalibləri avtomatik olaraq 2016-cı il Rio Yay Olimpiya Oyunlarında iştirak hüququ qazanacaqlar.

Voleybol üzrə yarışlar Crystal Hallda (qapalı), Çimərlik Arenasında (çimərlik) keçiriləcək. Voleybol Azərbaycanda komanda şəklində keçirilən ən məşhur idman növlərindən biridir. İlk Avropa Oyunlarına həm qapalı, həm də çimərlik voleybolu daxil olacaq. Dənizkənarı Crystal Hallda 6000 tamaşaçının qarşısında 24 komandanın və 336 idmançının iştiraki ilə voleybol yarışları keçiriləcək. 64 komandanın və 128 idmançının iştirak edəcəyi çimərlik voleybolu 3700 nəfərlik tutumu olan müvəqqəti Çimərlik Arenasında gözəl günəş şüaları altında oynanılacaq. Atletlərin 2016-cı il Rio Yay Olimpiya Oyunlarının çimərlik voleybolu yarışlarında iştirakına zəmanət verən yüksək xal qazanmaq uğrunda mübarizəyə qoşulmaq şansı olacaq.

Güləş yarışları Heydər Əliyev Arenasında baş tutacaq. Azərbaycanda ən məşhur təkbətək idman növü olan güləş Avropa Oyunlarının ən əhəmiyyətli yarışı olacaq və Heydər Əliyev Arenasında 7800 tamaşaçı qarşısında keçiriləcək. Ümumilikdə 24 çəki kateqoriyasının olması yarış günlərinin gərgin keçəcəyini göstərir. Altı güləş yarışları günlərində bir neçə medal qazanılacaq. Güləşin həm sərbəst, həm də Yunan-Roma növləri üzrə keçirilən yarışlarında 480 idmançıya coşğun kütlə qarşısında Avropa çempionu adını qazanmaq şansı yaradılacaq. Güləş üzrə Rio 2016-ya gedən kvalifikasiya yolunun birinci mərhələsi olaraq Avropa idmançıları və Milli Olimpiya Komitələri "Bakı 2015" Avropa Oyunlarında iştirak etməlidirlər.

I Avropa Oyunlarının medalları da yüksək səviyyədə tərtib edilmişdir. "Bakı-2015" brendinə uyğun şəkildə hazırlanmış və üzərində dekorativ təsvirlər əks olunan medallar 380 qramlıqdır. Medalların tərtibatı "Soçi-2014" Qış Olimpiya və Paralimpiya Oyunlarının medallarını hazırlamış məşhur zərgərlik brendi "Adamas" ilə azərbaycanlı rəssam Nərgiz Hüseynovaya məxsusdur. Medallar "Azərsuvenir" şirkəti tərəfindən Azərbaycanda istehsal edilib.

Atletlər kəndində idmançılar və komanda rəsmiləri üçün təhlükəsiz, rahat yaşayış şəraiti yaradılıb. On üç yaşayış binasından, yardımçı binalardan ibarət kompleksdə iki, üç və dördotaqlı 1042 mənzil var. Hər mənzil isə 2, 4 və 6 yataq otağından ibarətdir. Burada ümumilikdə 7499 atlet və rəsmi şəxs yerləşə biləcək. Hər binanın birinci mərtəbəsində ümumi istirahət yerləri var. Burada pulsuz internetə çıxış imkanı olacaq.

Həmçinin burada yerləşən mətbəx hər gün 80,000 kiloqram qidanı idmançılara təqdim edəcəkdir. Bu mətbəx Avropanın ən böyük mətbəxlərindən biridir. Burada idmançılara əsasən dünya mətbəxi təqdim ediləcək. Yeməkxanada eyni vaxtda 2015 atletə yüksək səviyyədə xidmət göstəriləcək.

Atletlər kəndində əsas diqqət yetirilən məsələlərdən biri də yarışlar zamanı idmançılara və məşqçilərə, qonaqlara, ümumiyyətlə ehtiyacı olan hər kəsə yüksək tibbi xidmət göstərməkdir. Bu məqsədlə də burada xüsusi poliklinika fəaliyyət göstərəcək. Binada müxtəlif təyinatlı otaqlar, o cümlədən qeydiyyat, müalicə, stomatoloji, oftalmoloji, laboratoriya, rentgen, fizioterapiya və s. xidmət sahələri var. Poliklinika ən zəruri avadanlıqla təchiz olunub. Bu səhiyyə mərkəzi hər gün səhər saat 8-dən axşam saat 20-dək fəaliyyət göstərəcək və günün 24 saatı təcili yardım xidməti olacaq. Dopinq nəzarəti mərkəzi də poliklinika ilə yanaşı yerləşir.

Media kəndindəki 4 binada ümumilikdə 536 mənzil var. Media kəndində jurnalistlər üçün ayrıca yeməkxana nəzərdə tutulub. Burada onlara dünya mətbəxindən müxtəlif təamlar təklif olunacaq. Yeməkxanada eyni vaxtda 500 nəfər qidalana biləcək.

Burada mədəniyyət və turizm mərkəzi yaradılıb. Mərkəzdə jurnalistlər üçün Azərbaycan haqqında müxtəlif məlumatların əks olunduğu bukletlər və kitablar sərgilənir. Burada yaradılan şərait təsdiq edir ki, Azərbaycanda



birinci Avropa Oyunlarına ən yüksək səviyyədə və bütün parametrlərə uyğun hazırlıq gedib. Xarici media təmsilçilərinə yaradılan şərait jurnalistlərə Oyunları operativ şəkildə bütün dünyaya çatdırmağa imkan verəcək. Onları Media kəndindən idman arenalarına pulsuz xüsusi avtobuslar aparıb-gətirəcək.

Həm Atletlər, həm də Media kəndlərində yaradılan şərait dünyada idman ölkəsi kimi tanınan, Olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası həm də ölkəmizin uğurlu inkişafının göstəricisidir. Burada görülən hazırlıq işləri bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə keçiriləcəyinə bir daha əminlik yaradır.

Oyunlar zamanı paytaxtımıza 10 minədək idmançının, məşqçinin, rəsmi şəxsin, jurnalistin gələcəyi gözlənilir. Yarış günlərində Avropanın, eləcə də dünyanın aparıcı telekanalları Bakıdan xəbərlər yayacaq, paytaxtımız növbəti dəfə dünya idmanının mərkəzinə çevriləcək. Birinci Avropa Oyunlarının keçirilməsində qazanacağımız təcrübə gələcəkdə digər mühüm yarışlara ev sahibliyi etməyimizə geniş imkan yaradacaq.

"Bakı-2015" I Avropa Oyunları Əməliyyat Komitəsi Təşkilat Komitəsinin sədrinin qərarı ilə yaradılmışdır. Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanın birinci xanımı, millət vəkili, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Britaniya Olimpiya Assosiasiyasının və İpsviç Şəhər Futbol Klubunun keçmiş baş icraçı direktoru Saymon Kleq "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin (BAOƏK) baş icraçı direktorudur. BAOƏK çoxmillətli işçi heyəti ilə təmsil olunur. Hazırda 5 qitədən 43 ölkəni təmsil edən heyət çalışır. BEGOC-un hazırkı işçi heyəti 442 nəfər xarici işçi heyəti olmaqla 1,900 nəfərdən ibarətdir.

Olimpiya, Qış Olimpiya və irimiqyaslı idman yarışlarının həyata keçirilməsində təcrübəyə malik olan yüksək səviyyəli beynəlxalq ekspertlərin təcrübəsindən istifadə edilir. Həmçinin onların bilik və səriştəsi beynəlxalq heyətdən yerli heyətə ötürülür.

Açılış mərasimi Azərbaycan mədəniyyətini və Bakının ev sahibi şəhər kimi müasir Avropada rolunu əks etdirəcək.

Sponsor kimi elan edilmiş 8 rəsmi tərəfdaş: AZAL, BP, Coca-Cola, Kapital Bank, Nar Mobile, P&G, SOCAR, Tissot çıxış edir. Həmçinin, Azercosmos, Azərsun Holdinq, Bazastore, McDonald's Azerbaijan, Nestl, Red Bull, Tickethour, Sitecore, Milla, Motorola Solutions və NAZ elan edilmiş 11 rəsmi dəstəkçidir.

Beynəlxalq İdman Yayım şirkəti (ISB) Avropa Oyunlarının ev sahibi yayım şirkəti təyin olunub. Bu günədək 80-dən çox ölkənin televiziya kanalları ilə müqavilə bağlanmışdır. 830 saat planlaşdırılmış yayım nəzərdə tutulub.

Tarixdə birinci dəfə keçiriləcək Avropa Oyunlarında işləmək imkanı nadir şansdır. Təcrübəli jurnalistlərlə çiyin-çiyinə işləmək nəticəsində əldə edilən təcrübə bir çox gəncin karyerasında böyük təkan olacaqdır.

Göründüyü kimi, I Avropa Oyunlarının keçirilməsi üçün lazım olan bütün işlər Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə yüksək səviyyədə təşkil edilmişdir.

Dünyanın aparıcı KİV-ləri "Bakı-2015" haqqında verilişlər və məqalələr hazırlamışlar.

Bir çox populyar portallarda "Bakı-2015" rubrikalar açılmışdır. Bu rubrikalarda Azərbaycan haqqında ətraflı məlumatın təqdim edildiyi bölmələrdə dövlət atributlarımıza yer verilir, ölkəmizin müstəqillik tarixi, mədəniyyəti, adət-ənənələri və memarlıq abidələrindən geniş bəhs olunur. Həmçinin Azərbaycanın son illərdəki sürətli inkişafı, iqtisadiyyatının dinamik artımı, strateji mövqeyi ətraflı təhlil edilir. Hər gün yenilənən bu mənbələrdə "Bakı-2015" birinci Avropa Oyunlarına hazırlıq işlərinin gedişi, bu mötəbər idman tədbirinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində görülən işlər barədə fikirlər də diqqətə çatdırılır. Həmçinin, rubrikalarda "Bakı-2015" birinci Avropa Oyunları ərəfəsində Azərbaycanı ziyarət edəcək turistlər üçün də maraqlı məlumatlar yerləşdirilib. Paytaxtın müasir otelləri, Azərbaycan mətbəxi və Bakının nəqliyyat sistemi




haqqında ətraflı məlumat verilir.

Aparıcı dünya kanallarında hər gün tədbirin kadrları, eyni zamanda, tam şəkildə açılış və bağlanış mərasimləri yayımlanacaq. İlkin proqramlaşdırma və gündəlik olaraq yarışların maraqlı məqamlarından seçilmiş videomateriallar da təqdim ediləcək.

Həm ölkəmizin, həm də Avropanın ən qədim tarixi mədəniyyət abidələrindən olan Atəşgah I Avropa Oyunlarının məşəlini alovlandırmaq üçün ideal bir məkandır. 26 aprel tarixi I Avropa Oyunlarının alov səyahətinin başlanğıc günü oldu. Prezident İlham Əliyev ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə Oyunların məşəlini alovlandırdı.

Məşəli "Yarat" Müasir İncəsənət Mərkəzinin bədii rəhbərliyi ilə birlikdə Sebastian Berqne dizayn edib. 660 mm hündürlüyü olan məşəlin gövdəsi "Bakı-2015" brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi Oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.

Dövlətimizin başçısı məşəli "Bakı-2015" Avropa Oyunlarının ilk məşəlçisi, Olimpiya çempionu Rəfiqə Şabanovaya verdi. Həmin gün Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başladı və Azərbaycanın hər bir guşəsini gəzib-dolaşıb. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub. Estafet boyunca hər regionu əhatə edən "Alov festivalı" keçirilib. Məşəl Neft Daşlarında, paytaxtda idman arenalarında, İçərişəhərdə və digər görməli yerlərdə gəzdirilib. Oyunların açılış mərasimi günü məşəl Bakı Olimpiya Stadionuna gətiriləcək.

Avropa ölkələrinin xalqlarının nümayəndələrinin bir araya gələcəyi, bütün Avropanın yaxından izləyəcəyi bu idman yarışmasına Azərbaycanın ev sahibliyi etməsi dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına mühüm töhfələr verəcək, beynəlxalq aləmdə ictimai-siyasi, mədəni-humanitar nüfuzunu artıracaq. Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olmasını dünyaya nümayiş etdirəcək.

Azərbaycan idmançılarına "Bakı-2015" I Avropa Oyunlarında daha böyük uğurlar, qələbələr arzu edirik.

**Hazırladı:**
**Samir ZEYNALOV,**
**"Respublika".**





